**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında**
**İctimai şura ilə bağlı 2023-cü ildə görülən işlərə dair**

# HESABAT

## İctimai şura

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında İctimai şura "İctimai iştirakçılıq haqqında" Qanuna uyğun olaraq, Nazirlik üzrə hüquqi aktların qəbulunda və fəaliyyət istiqamətləri ilə bağlı ictimai nəzarətin təşkilində vətəndaş cəmiyyəti institutlarının iştirakının təmin olunması məqsədilə yaradılıb.

2023-cü il 29 mart tarixində İctimai şuraya keçirilən seçkilər nəticəsində 9 nəfərlik tərkibi seçilib. Şuranın üzvlərini vətəndaş cəmiyyəti institutunun nümayəndələrindən ibarət 142 seçici müəyyən edib.

## Nazirliyin saytında müvafiq məlumatların dərci

İctimai şura ilə bağlı məlumatlar Nazirliyin www.sosial.gov.az rəsmi internet saytının ön səhifəsindəki "Nazirlik" bölməsinin "İctimai şura" altbölməsində dərc edilir.

Yeni qanunvericilik layihələri ictimai müzakirə üçün saytın "Qanunvericilik layihələri" altbölməsində təqdim edilir.

## İctimai şuranın 2023-cü ildə fəaliyyəti

Nazirlik rəhbərliyinin iştirakı ilə İctimai şura üzvləri ilə birgə 13 iclas keçirilib, aparılan sosial islahatlar, sosial müdafiə tədbirləri müzakirə olunub.

İctimai şuranın Nazirliyin bütün qurumlarında (Dövlət Əmək Müfəttişliyi Xidməti, DOST Agentliyi, DOST Rəqəmsal İnnovasiyalar Mərkəzi, DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi, DOST iş Mərkəzi, Dövlət Sosial Müdafiə Fondu, Dövlət Məşğulluq Agentliyi, Sosial Xidmətlər Agentliyi, Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi, Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriya və s.) görüşləri təşkil olunub. Bu görüşlərdə həmin qurumların fəaliyyəti, yeni layihələri barədə şura üzvlərinə təqdimatlar edilib, onlarla birgə müzakirələr aparılıb.

Yeni 9 normativ-hüquqi aktların layihələri onlara təqdim olunaraq, müvafiq qanunvericiliyin təkmilləşdirilməsi işlərində rəy və təklifləri öyrənilib.

İctimai şura üzvlərinə sosial islahatlara, yeni sosial müdafiə proqramlarına dair ətraflı məlumatlanmaları və müvafiq mövzularda ictimai məlumatlandırmada əsaslanmaları üçün tezislər, arayışlar hazırlanaraq göndərilib.

İctimai şura üzvləri üçün sosial sahədə yeniliklərlə bağlı təqdimatlar edilib. "Əmək münasibətləri və Məşğulluq" altsisteminin təqdimatı, sosial müdafiə sahələrində qurulan rəqəmsal infrastruktur, e-sistemlər üzərindən proaktiv təyinat mexanizmləri barədə, postmüharibə dövründə görülmüş sosial dəstək tədbirlərinin, əlilliyin müəyyən olunması üçün yeni meyarların və s. ictimai müzakirəsi olub.

Sosial müdafiə tədbirlərində, həmçinin mənzil və avtomobillərin təqdim edilməsi tədbirlərində İctimai şura üzvlərinin iştirakı təmin edilib.

Əlillik müayinələrində ictimai nəzarətin və şəffaflığın təminatı məqsədilə şura üzvləri və digər QHT-lərin iştirakı təmin olunub.

Sosial sifarişlər əsasında sosial xidmətlərin göstərilməsi ixtisaslaşmış QHT-lər ilə əməkdaşlıq müstəvisində yerinə yetirilib.

Hesabat dövründə Nazirliyin strukturuna daxil olan və tabeliyində olan qurumlarda müvafiq mövzulara dair 8 ictimai dinləmə keçirilib.

Bununla yanaşı, Qarabağ müharibəsi, 20 Yanvar, Çernobıl AES qəzası nəticəsində əlilliyi olan şəxslər, gözdən əlilliyi olan şəxslər, müharibə veteranları və digər əhali qrupları üzrə ictimai birliklərin rəhbərləri ilə vaxtaşırı görüşlər keçirilib, onların rəy və təklifləri dinlənilib, bu və ya digər aidiyyəti məsələlərə dair ictimai dinləmələr və məsləhətləşmələr həyata keçirilib.

Nazirliyin strukturuna daxil olan və tabeliyində olan qurumlar tərəfindən təşkil edilən infoturlarda Nazirlik yanında İctimai şuranın üzvlərinin də iştirakı təmin olunub.